Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Uşaqlarımızın valideyn himayəsindən məhrumiyyətini əngəlləyən qanun normaları daha da möhkəmləndirildi...

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Azərbaycan dövləti təkcə uşaqların sosial müdafiəsinin təşkilində aktiv rol oynamır, onlara yalnız maddi cəhətdən dayaq durmur, həm də onların hüquqlarının müdafiəsinin gücləndirilməsi istiqamətində böyük işlər görür.**

Prezident İlham Əliyevin Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında imzaladığı Fərman buna ən bariz örnəklərdən biridir.

**Prezident Fərmanında nədən danışılır?**

Prezidentin imzaladığı Fərmanda qeyd edilir ki, 2022-ci il noyabrın 1-dən himayədar ailə sahəsində dövlət siyasətinin, tənzimləmənin və dövlət nəzarətinin, o cümlədən himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların vahid uçotunun elektron qaydada aparılması, valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi, habelə həmin müəssisələri tərk etməsi ilə bağlı qərarların qəbul edilməsi, sosial dəstək mexanizmlərinin tətbiqi vasitəsilə uşaqların müəssisələrdən ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi, eləcə də onların müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsi və müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanması sahəsində səlahiyyətlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilir.

Azərbaycanda uşaqlara qayğı siyasətinin təməlləri çox möhkəmdir və etibarlı dayaqlara malikdir. Heç şübhəsiz, valideyn himayəsindən məhrum olan uşaqların da hərtərəfli müdafiəsi, onların cəmiyyətə, vətənə layiq şəxsiyyətlər kimi yetişdirilməsi dövlətin əsas hədəflərindəndir. Ekspertlər hesab edir ki, ölkə başçısının imzaladığı bu Fərman Azərbaycanda valideyn himayəsindən kənarda böyüyən uşaqlara qayğı və diqqətin böyük təzahürüdür və qayğı sisteminin genişlənməsi üçün yeni mərhələ açır. Fərmanın icrasını həyata keçirəcək qurum olan Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyindən mətbuata bildiriblər ki, Prezident İlham Əliyevin imzaladığı "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Fərman uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsinə imkan yaratmaqla, uşaq qayğı sisteminin inkişafında yeni mərhələ açır. "Fərmanla himayədar ailə sahəsində dövlət siyasətinin, tənzimləmənin və dövlət nəzarətinin həyata keçirilməsi 2022-ci il noyabrın 1-dən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilir. O cümlədən, Nazirlik himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların vahid uçotunun elektron qaydada aparılmasını, valideyn himayəsindən məhrum uşaqların onlar üçün müəssisələrdə yerləşdirilməsini, həmin müəssisələri tərk etməsi ilə bağlı qərarların qəbulunu həyata keçirəcək.



Həmçinin sosial dəstək mexanizmlərinin tətbiqi vasitəsilə uşaqların müəssisələrdən ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi, eləcə də onların müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görəcək. Həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planları hazırlayacaq. Himayədar ailə institutu uşaqlara qayğı sisteminin dünyada geniş yayılmış nümunələrindən biri olmaqla, dövlət müəssisələrindəki uşaqların himayədar ailələrə verilməsi ilə ailə mühitində yaşamalarına və bununla onların inkişafına şərait yaradılmasını nəzərdə tutur. Həmin modelin ölkəmizdə də tətbiqinə hazırlıq işləri aparılır. Bu sahədə Nazirlik tərəfindən qabaqcıl dünya təcrübəsi öyrənilir, xüsusilə Türkiyənin bu sahədə təcrübəsindən istifadəyə xüsusi önəm verilir və qardaş ölkə ilə fəal təcrübə mübadilələri aparılıb".

**Fərman himayədar ailə institutunun ölkəmizdə uğurla formalaşmasına şərait yaradır...**

Nazirliyin açıqlamasında Fərmanın bütün bəndlərinin şərhi, izahı verilir və bunun Azərbaycan həyatında yeni bir istiqamət açdığını ifadə edir. Vurğulandığına görə, Prezident İlham Əliyevin yeni Fərmanı himayədar ailə institutunun ölkəmizdə uğurla formalaşmasına şərait yaradır. Fərmanla bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər Nazirlər Kabineti tərəfindən yeddi ay müddətində hazırlanıb dövlət başçısına təqdim ediləcək. Habelə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi himayədar ailə sahəsində dövlət siyasətini, tənzimləməni və dövlət nəzarətini, bu sahədə idarəetməni həyata keçirməsi ilə əlaqədar 2022-ci il noyabrın 1-dək Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminin təkmilləşdirilməsini təmin edəcək.

Ekspertlər hesab edir ki, bu sahədə imzalanan yeni Fərman və Fərmanda valideyn himayəsindən məhrum olan uşaqların övladlığa verilməsi qaydalarının bu şəkildə təsbit olunması müsbət haldır. Qanun həm də imkan verəcək ki, bu kateqoriyadan olan uşaqlar yaxşı ailələrə övladlığa verilsin və onları övladlığa götürən himayəçi ailələr ailə institutumuzun mükəmməl üzvləri olsun. Bütün hallarda Prezidentin imzaladığı bu Fərman valideyn himayəsindən məhrum olan uşaqların hüquqlarının müdafisəsində mühüm rol oynayacaq.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**